# Qanunun aliliyi başlıca şərtdir

## NARDARAN KƏNDİNDƏ BAŞ VERƏN HADİSƏ BİR DAHA BU REALLIĞI TƏSDİQLƏYİR Kİ, TƏXRİBATÇI CƏHDLƏR MÖHKƏM TƏMƏL ÜZƏRİNDƏ TƏŞƏKKÜL TAPMIŞ DÖVLƏTÇİLİYİMİZİN ƏSASLARINI HEÇ BİR VƏCHLƏ SARSIDA BİLMƏZ

**Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas tərkib hissələrindən biri siyasi islahatların iqtisadi islahatlarla tamamlanmasıdır. Aydın məsələdir ki, hər bir ölkə iqtisadi əlaqələr qurmaq istədiyi dövlətdə ilk növbədə ictimai-siyasi sabitliyə, demokratik inkişafa diqqət yetirir. Demokratiyanın ictimai-siyasi sabitliyin, qanunun aliliyinin hökm sürdüyü şəraitdə inkişaf etdiyini nəzərə alsaq, Azərbaycanın bu sahədə hansı uğurlara nail olduğunu aydın görərik.**



Azərbaycanın demokratiya təcrübəsinin digər ölkələrə nümunə göstərilməsi bu sahədə qazanılan uğurların ümumiləşdirilmiş ifadəsidir. Müstəqil dövlətimiz ilk gündən sivil, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu seçərək bu istiqamətdə atdığı addımları ilə bir daha sübut edir ki, demokratiyaya sözdə deyil, əməldə sadiqdir. Azərbaycanın 2001-ci ilin yanvarında demokratik prinsiplərin inkişafı ilə məşğul olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasına qədər keçdiyi yolu, qarşıya çıxan çətinlikləri yada salmaq kifayətdir. Azərbaycanı istəməyən daxili və xarici bədxahlar hər vəchlə ölkəmizin quruma üzv qəbul olunmasına mane olmağa çalışırdılar. Lakin bu cəhdlər ulu öndər Heydər Əliyevin uğurlu və düşünülmüş siyasəti, qətiyyəti sayəsində boşa çıxdı. Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın ayrı-ayrı sahələrdə qazandığı uğurlardan bəhs edərkən hər zaman bu fikri diqqətə çatdırır ki, bu nailiyyətlər göydəndüşmə deyil, böyük qətiyyətin və səylərin nəticəsidir.

"Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu bizim strateji kursumuzun mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz" bəyan edən ulu öndər Heydər Əliyev atdığı addımları ilə söylənilənlərin bir niyyət, şüar olmadığını, reallıqlarda öz əksini tapdığını sübut etdi. Ümummilli Liderin böyük uzaqgörənliklə dediyi və təcrübədə özünü təsdiqləyən bu fikri həm də dövlətimizin həyata keçirdiyi siyasətin prioriteti oldu: "Demokratiya daim inkişafda olan prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə təkamül yolu ilə olmalıdır." Azərbaycanın demokratikləşmə strategiyası həm ölkəmizin demokratik nailiyyətlərinin miqyasını genişləndirir, həm də demokratiya anlayışının cəmiyyətdə möhkəmlənməsi prosesinə öz töhfəsini verir. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi ilə ölkədə dövlət quruculuğu üçün zəruri hüquqi baza formalaşdı. Ölkəmizin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olaraq quruldu. Ötən illər ərzində Azərbaycanda bütün istiqamətlərdə dövlət quruculuğu prosesi uğurla həyata keçirilmiş, dövlətçilik ənənələri zənginləşdirilmişdir.

Bu gün Azərbaycan dünya dövlətlərinin birləşdiyi BMT, Avropa Şurası, ATƏT, İƏT kimi nüfuzlu təşkilatlarda layiqincə təmsil olunur. Bu təşkilatlara daxil olmağı məqsədyönlü siyasət və düşünülmüş addım kimi dəyərləndirən Prezident İlham Əliyevin qeyd etdiyi kimi, məqsəd Avropanın ən inkişaf etmiş ölkələrində mövcud olan müsbət təcrübənin Azərbaycanda tətbiqini sürətləndirmək, bəşəri dəyərlərdən faydalanmaqdır. Bu fikir də hər zaman önə çəkilir ki, atılan addımlar hansısa dövlətə, təşkilata xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür.

Dövlətimizin başçısı İlham Əliyev istər xarici ölkələrə səfərləri, istərsə də bu və ya digər ölkənin, təşkilatın rəsmilərinin Azərbaycana səfəri çərçivəsində keçirilən görüşlərdə bu məsələyə xüsusi diqqət yönəldərək bildirir ki, bizim demokratik inkişafla bağlı öhdəliyimiz dəyərlərə, ölkəni necə dəyişmək istəyimizə dair baxışlarımıza əsaslanan şüurlu seçimimizdir. Cənab İlham Əliyevin Prezident kimi ABŞ-a ilk səfəri zamanı jurnalistin Azərbaycanın demokratiya sahəsində ABŞ qarşısında hansı öhdəliyinin olması barədə sualına cavabını yada salaq. Dövlətimizin başçısı bildirmişdir ki, bizim heç bir öhdəliyimiz yoxdur. Münasibətlərimiz qarşılıqlı maraq və hörmət prinsipləri əsasında inkişaf edir. Bu kimi açıqlamalar Azərbaycanın siyasətində müstəqil olmasının, böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə eyni şəkildə münasibətlər qurduğunu təsdiqləyir. Eyni zamanda bu fikirlər ölkəmizin uğurlarına qısqanclıqla yanaşan daxili bədxahlarımıza bir xatırlatmadır. Bu baxımdan ki, daim bu ünsürlərin inhisarında olan mətbu orqanlarda Azərbaycanın hansısa qurum, dövlət qarşısında öhdəliyindən, təzyiqlərdən bəhs olunur. Ölkəmizin demokratik inkişafına hər vəchlə kölgə salmağa çalışan qüvvələr daim müxtəlif ssenarilər hazırlayır, bunların icrası istiqamətində səylər göstərsələr də, sonda bir daha bu reallığın şahidinə çevrilirlər ki, həqiqəti yalanla ört-basdır etmək qeyri-mümkündür.

Bu gün müxalifət mətbuatında Nardaranda yaşananlarla bağlı əksini tapan yazılar da bir çox məqamlara işıq salır. Xarici antiazərbaycan dairələrin sifarişləri əsasında ölkədə ictimai-siyasi durumun gərginləşməsinə, xalq-hakimiyyət qarşıdurmasının yaradılmasına xidmət edən bu hadisələrin ssenaristlərinin və icraçılarının müdafiəsi diqqətdən yayınmır. Amma bir məqam unudulur ki, Azərbaycanın tolerant ölkə olması, eyni zamanda dövlətin həyata keçirdiyi siyasətin önündə vətəndaş amilinin dayanması, ictimai-siyasi sabitliyin qorunmasına yönələn addımların davamlılığı, ən əsası xalq-iqtidar birliyinin möhkəmliyi, sarsılmazlığı beynəlxalq səviyyədə təqdir olunan uğurlarımız sırasındadır. Bu gün Taleh Bağırzadə kimilərinin müdafiəsinə qalxan "Milli Şura"çıların mövqeyi bir daha onların kimliyinə, hansı məqsəd uğrunda mübarizə apardıqlarına aydınlıq gətirir.

Hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına xidmət edən qanunlara riayət etmək hər birimizin vətəndaşlıq borcudur. Daim vurğulandığı kimi, qanun hər kəsdən eyni məsuliyyəti tələb edir. Nardaranda cinayətkar dəstənin törətdikləri, keçirilən əməliyyat zamanı müxtəlif növ odlu silah, döyüş sursatı, partlayıcı maddənin aşkarlanması hər kəsə məlum olduğu halda, dağıdıcı ünsürlərin və onların tabeliyində olan mətbu orqanların bunları inkar yolunu tutması bu şəxslərin riyakarlıqlarını, dövlətin, xalqın mənafeyini öz şəxsi ambisiyalarına qurban verdiklərini bir daha təsdiqləyir.

Qeyd etdiyimiz kimi, Azərbaycan hüquqi dövlətdir. Hər bir hadisəyə hüquqi baxımdan dəyər verilir. Taleh Bağırzadə kimi cinayətkarlar, terrorçular öz əməllərinə görə layiqli cəzalarını alacaqlar. Ölkədə ictimai-siyasi sabitliyin pozulmasına heç zaman yol verilməyib və verilməyəcək. Nardaran kəndində baş verən hadisə bir daha bu reallığı təsdiqlədi ki, təxribatçı cəhdlər möhkəm təməl üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz.

Azərbaycan demokratik, hüquqi dövlət kimi beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutur. Ölkəmiz eyni zamanda Avropa İttifaqı ilə tərəfdaşdır. Bu onu göstərir ki, ölkəmizdə demokratik təsisatların inkişafı beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində uğurla davam etdirilir. Ölkə Prezidentinin vurğuladığı kimi, dövlətimiz bu islahatların davam etdirilməsində maraqlı olmasaydı, sözsüz ki, beynəlxalq əməkdaşlığa bu qədər önəm verməzdi.

Azərbaycanla ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayının artması, ölkəmizin beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsi və s. kimi uğurlarımız dağıdıcıların apardıqları təbliğatın qərəzdən başqa bir şey olmadığını təsdiqləyir. Demokratiyadan ağızdolusu danışıb, amma bu anlayışın mahiyyətini dərk etməyən dağıdıcı ünsürlər nəhayət anlamalıdırlar ki, Azərbaycan heç bir ölkənin, təşkilatın diktəsi əsasında oturub-durmur, müstəqil dövlətdir. Xarici antiazərbaycan qüvvələrlə iş birliyində olan daxili bədxahlarımızın Nardaran hadisəsindən öz çirkin niyyətlərini həyata keçirmək üçün bir vasitə kimi bəhrələnmələri də onların vətəndaşlıq təəssübkeşliyindən nə qədər uzaq olduqlarını bir daha nümayiş etdirir.

Demokratiyanın vacib amillərindən olan insan hüquqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlətin siyasətində əsas yer tutur. Dövlətimizin başçısı bildirir: "Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda, hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə. Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin." Bu, dövlət-vətəndaş münasibətləridir.

Təkmilləşməyə, müasirləşməyə xüsusi önəm verən dövlətimiz dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin Azərbaycanda tətbiq olunmasına maraq göstərir. Müxtəlif sahələrin inkişafına xidmət edən qanunlara mütəmadi əlavə və dəyişikliklər edilməsi də deyilənlərin təsdiqidir. Siyasi partiyaların fəaliyyətini tənzimləyən "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi, "Vətəndaşların sərbəst toplaşmaq azadlığı haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi demokratiyanın inkişafına xidmət edən addımlardandır. Dağıdıcılar üçün görəsən demokratiya anlayışının mahiyyəti gizli sövdələşmələr, yaxud cinayətkara, terrorçuya dəstək olmaqdırmı? Bu ünsürlərin bu və ya digər dövlətlərin ölkəmizdəki səfirlikləri ilə gizli görüşlər keçirmələri, bu barədə ictimaiyyətə heç bir açıqlama verməmələri, cızılan ssenarilərin əsas tərkib hissələrinin nədən ibarət olmasının sonrakı proseslərdən aydın olması, həmçinin dövlətə qarşı çıxanlara dəstək vermələri, konkret cinayət əməllərinə görə həbs olunanları müdafiə etmələri və s. kimi ikrah doğuran fəaliyyətləri məlumdur. Reallıq budur ki, bu ünsürlər hər zaman çıxış yolunu xaricdə dəstək axtarmaqda, Azərbaycan hakimiyyətinin ünvanına əsassız fikirlər səsləndirməkdə görürlər. İctimaiyyət bütün fəaliyyətləri boyu bu ünsürlərin "adımı sənə qoyum,..." prinsipi üzrə hərəkət etdiklərinin şahididir. Buna görə də onların bugünkü canfəşanlıqları heç kəsdə təəccüb doğurmur, heç əhəmiyyət də verilmir. Düşərgə təmsilçilərinin etiraf etdikləri kimi, xaricdən gələn sifarişin sədaları altında çalıb-oynayan özləridir. Azərbaycanın imicinə zərbə vuracaq hər bir addım daxili bədxahlarımız üçün qəbulolunan və dəstəklənən hərəkətlərdir.

Düşmən dəyirmanına su tökən daxili bədxahlarımız şəxsi maraqlarını arxa plana keçirib, hadisələrə obyektiv yanaşmağı bacarsalar ölkədə inkişafın ən yüksək səviyyədə olduğunu görər, baş verən olaylarda, o cümlədən Nardaran kəndində yaşananlarda kimin haqlı, kimin haqsız, ən əsası cinayətkara dəstək olmağın özünün cinayət olduğunu başa düşər, ictimai qınaqdan nəticə çıxarmaq barədə düşünərlər. Bu ünsürlər unutmamalıdırlar ki, xarici dayıları ilə hansı tərkibdə planlar hazırlamalarına baxmayaraq, Azərbaycan müstəqil dövlətdir, qanunlarla idarə olunur, hər bir məsələyə lazımi anda dövlətin maraqlarına uyğun mövqe ortaya qoyulur. Azərbaycan uğurlu siyasəti ilə iqtisadi və siyasi mövqeyini möhkəmləndirməklə, Cənubi Qafqaz iqtisadiyyatının 85 faizinə sahib olmaqla, dünya iqtisadi sisteminə inteqrasiyanı sürətləndirməklə, ən nəhayət, beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etmək üçün ideal məkan seçilməklə istər daxili, istərsə də xarici bədxahlarımızın cəhdlərinin əbəs olduğunu təsdiqləyir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***